# "Azərbaycan gözəl və səvətli bir ölkədir"

2019-cu il noyabr ayının 20-də Cənubi Azərbaycanda milli-azadlıq hərəkatının lideri Firidun İbrahiminin anadan olmasının 100 ili tamam olur.

Xalq şairi Hökümə Büllurinin keçən əsrin 40-cı illərində Cənubi Azərbaycanda baş vermiş milli-azadlıq hərəkatına həsr olunmuş yaradıcılığından bəhs edən bir məqalədə müəllif yazır ki, dünyada çox inqilablar olub, tarixə çox qəhrəmanların izi düşüb. Ancaq tarixi inqilablar dövründə Cənubi Azərbaycan fədailəri qədər vətənpərvər, etibarlı döyüşçülər, sınanmış, Vətəninə vurğun, ən çətin zamanlarda belə ümidini itirməyən, varlığı ilə vuruşan, silaha sarılmış, sinəsini səngər edən fədailər görməmişdir (Bax: "Kredo" qəzeti, 25 avqust, 2018-ci il).

Belə fədailərdən biri, Xalq şairi Hökümə Büllurinin müasiri Cənubi Azərbaycanda milli-demokratik hərəkatın rəhbərlərindən, 1943-cü ildən İran Xalq Partiyasının üzvü Firidun İbrahimidir. Firidun İbrahimi 1919-cu il 11 noyabrda Cənubi Azərbaycanın Astara şəhərində anadan olmuşdur.

1945-ci ildə Tehran Darülfünunun hüquq fakültəsini bitirən Firidun, həmin ilin dekabrında Təbrizdə Azərbaycan Milli hökumətin baş prokuroru təyin edilmişdir. Gəncliyindən azadlıq hərəkatına qoşulan, insan hüquqlarını çox gözəl bilən fədai əzilən insanların azad yaşamaq haqqının müdafiəsinə qalxmış, bu yolda da şəhid olmuşdur.

1941-ci ilin payızında İran Xalq Partiyası yaradıldı. 1942-ci ilin yazında Cənubi Azərbaycanın Təbriz, Marağa, Zəncan, bir qədər sonra Mərənd, Xoy, Urmiya və başqa şəhərlərində Xalq Partiyasının komitələri təsis olundu. 1945-ci ildə artıq Partiyanın üzvlərinin sayı 43.700 nəfər idi.

İran Xalq Partiyasının orqanı "Rəhbər" qəzeti idi. Hələ tələbəlik illərindən inqilabı hərəkata qoşulmuş əksinqilabi qüvvələrə, fars şovinistlərinə qarşı yazdığı siyasi məzmunlu publisistik məqalələrini "İttilaat", "Ajır", "Rəhbər", "Mərdom" "Zəfər", "Siyasət", "Azərbaycan" və digər qəzetlərdə Azərbaycan və fars dillərində dərc etdirən Firidun İbrahimi, Təbrizdə çıxan "Xavəri-nou" (Yeni Şərq) qəzetinin redaktoru olmuşdur. 1945-ci ilin sentyabrında Təbrizdə Azərbaycan əhalisinin müxtəlif təbəqələrinin iştirak etdiyi konfransda Azərbaycan Demokrat Partiyasının əsası qoyuldu. Bu partiyanın yaranması Cənubda qüvvətlənən milli-azadlıq hərəkatı ilə əlaqədar idi. Azərbaycan Demokrat Partiyasının müraciətində deyilirdi: İranda yaşayan bütün millətlər, xalqlar muxtariyyət əldə etməli və öz müqəddəratlarını özləri təyin etməlidirlər.

Azərbaycan Demokrat Partiyasının orqanı olan "Azərbaycan" qəzeti 1945-ci ilin 05 sentyabrından nəşr olunmağa başlamışdır. Firidun İbrahiminin qəzetin səhifələrində ardıcıl olaraq çoxsaylı siyasi-publisistik məqalələri dərc olunmuşdur. Bu məqalələrdə o, Azərbaycan xalqının mübarizəsinin məqsəd və vəzifələrini şərh edir, onun böyük tarixi əhəmiyyətini qeyd edir, azadlıq hərəkatının düşmənlərini amansızcasına damğalayırdı.

Alovlu mübariz məqalələrinin birində milli-azadlıq hərəkatının məqsədini şərh edərək belə yazır: "Bizim hərəkatımız milli bir hərəkatdır. Bu elə bir hərəkatdır ki, Azərbaycan xalqının bütün təbəqələri onda iştirak edirlər və onlar tutduqları yoldan son məqsədlərinə çatmayınca geri dönməyəcəklər" ("Azərbaycan" qəzeti, 1945, №60).

Firidun İbrahimi Azərbaycan Demokrat Firqəsinin irəli sürdüyü, bütün İranda azadixah ünsürlərdən vahid və möhkəm bir cəbhə yaratmaq məqsədindən danışaraq yazırdı ki, bu cəbhənin şüarı İran daxilində həqiqi demokratik quruluş yaratmaqdır ki, İran millətinin hakimiyyət və istiqlal haqqı qorunsun, burada yaşayan xalqıar azad və səadətmənd yaşasınlar.

Hüquqşünas İbrahimi məqalələrindən birində belə yazırdı: "İnsanlar fərdi və ictimai hüququndan o zaman istifadə edə bilərlər ki, özlərini ictimanın təyin etdiyi şəraitdə "rəşid" (qorxmaz, sağlam, igid) tanıtdırmış olsunlar. Mürtəce qüvvələr isə azadlıq çırağını söndürmək xəyalından bir ləhzə də olsun qəflət etmirlər".

Firidun İbrahiminin amalı onun müraciətlərində, məqalələrində, irəli



sürdüyü aşağıdakı fikirlərdə öz əksini tapmışdır. "Biz istəyirik ki, İranda həqiqi demokrasi üsulu ehya (bərpa) və təqiyyət (möhkəmlənmə) edilsin, biz istəyirik ki, İran xalqları azad və səadətmənd yaşasınlar. Biz istəyirik ki, İran millətinin hakimiyyət və istiqlal haqqı məhfuz qalsın. Ona görə İranda bu vahid və möhkəm cəbhənin yaranmasına çox əhəmiyyət veririk. Bizcə, əgər bu cəbhə yaransa, İran xalqları tərəqqi və səadətə nail olarlar və məhəbbətli bir ailə kimi yaşaya bilərlər".

Azərbaycanda azadlığı aradan aparmaq olmaz! Firidun İbrahimi Azərbaycanın qədim tarixini dərindən öyrənmiş, ona yiyələnmiş, "Azərbaycan" qəzetinin səhifələrində və digər mətbuat orqanlarında dərc etdirdiyi "Mübarizələrimizə layiq mükafat "Qanuni-əsasimizdir" adlı məqaləsində yazır: "Azərbaycan xalqı özünü tarix boyu rəşid və sərbəst idarə etmək haqqına və imtiyazına qadir və malik bir millət tanıtdırmışdır. Millətimiz 3000 il bundan əvvəl azad yaşamaq məqsədilə mübarizələr aparıb və azadlıq ələ gətirməkdən ötəri çox ağır və çətin şəraitdə qələbələr çalmışdır. Bugün Midiya millətinin rəşid balaları öz tarixi əzəmətinin bərpası üçün ayağa qalxmışdır və qət etmişlər ki, öz azadlıq bayrağını şanlı Midiya millətini qoruyan qalaların üstünə vurub, özünün qəhrəman babalarının həqiqi varisi olduğunu bütün dünyaya tanıtdırsın".

Tariximizə həsr etdiyi məqalələri, Vətən sevgisini uca tutan bir eloğlunun fikirləri "Azərbaycan" qəzetinin səhifələrində öz əksini tapmışdır. Firidun İbrahimi bu məqalələri yazarkən Yaqut Həməvinin "Möcəm-əl-büldan" əsərindən "Nüzhətül-qülub" da olan fikirlərdən həm istifadə etmiş, eyni zamanda yeri gəldikcə onlara öz tənqidi münasibətini də bildirmişdir. Bəzi qədim tarixçilərin "Təbrizi Harun ər-Rəşidin qadını Zibeydə Xatun 175-ci ildə saldırmışdır" ifadəsini rədd edir, Təbrizin Ekbatan olduğu barədə Herodotun fikrinin də səhv olduğunu göstərir ("Azərbaycan", 1946, № 171, s. 2). Firidun İbrahimi "Təbriz" məqaləsində şəhərin qədim tarixindən bəhs etmiş, onun qədim elm və sənət mərkəzi olduğu, miladi tarixdən 700 il öncə bina edildiyini bildirmişdir.

Firidun İbrahimi "Qədim Azərbaycan tarixi" kitabını yazmaqla azad görmək istədiyi vətənini canından artıq sevdiyini bildirərək bunu təsdiq etmiş, nəticədə onun fədaisi olmuşdur.

1946-cı ilin dekabr ayında əksinqilabı qüvvələrin Təbrizə hücumu zamanı dörd yoldaşı ilə birlikdə 24 saat partiya komitəsi binasını müdafiə etmiş alovlu vətənpərvər, Cənubi Azərbaycanda milli-azadlıq hərəkatının rəhbərlərindən biri, 28 yaşlı Firidun İbrahimi həbs olunmuş, 1947-ci ilin may ayının 22-də edam edilmişdir.

Bu qanlı tarixi yazanlar müəyyən etmişlər ki, irtica qüvvələrinin qalib gəldiyi günlər Cənubi Azərbaycanda 760 adam güllələnmiş, dar ağacından asılmışdır, 10 mindən artıq mücahid həbsə, sürgünə və ölümə məhkum edilmişdir.

Sözümü Cənubi Azərbaycanda xalqının mənəvi irsini yenidən, olduğu kimi araşdıran, onu saxtalaşdıranlara qarşı kəskin mövqe tutan şəxsiyyətlərdən biri, şərqşünas alim, türkoloq, tarixçi, dilçi folklorşünas Məhəmmədtağı Zehtabinin (1923-1998) sözləri ilə bitirmək istəyirəm. M.Zehtabi "İslama qədər İran türklərinin dili və ədəbiyyatı" əsərində yazır: "Tarixə məlum olan miladdan 4-5 min il əvvəldən islamaqədərki uzun bir dövrdə çağdaş İranın bütün Qərbi, Mərkəzi və Xəzərin cənub əyalət və mərkəzlərində, Şimali və Cənubi Azərbaycan da daxil olmaqla, həmişə türkdilli ellər, qəbilələr, el birləşmələri və xalqlar yaşayıb, bəşəriyyətin və İranın ən əski və ən zəngin mədəniyyətini, hünəri və sənətini yaradaraq onunla bütün Yaxın Şərq, Misir və hətta Avropaya örnək olmuş və yol göstərmişlər".



*Tahirə* Həsənzadə,
*tarix elmləri doktoru*